**A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

---

**№** 36 　　　　　　　　　　　　　　　　　　　　　　　　**"**23**"** fevral **2026-cı il**

**"1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsi barədə**

Binəqədi Rayon İcra Hakimiyyətinin 2026-cı il üçün mülki müdafiə tədbirləri planına əsasən 27 fevral 2026-cı il tarixdə "Dayanıqlı və sabit gələcək naminə ekoloji risklərin idarə edilməsi" mövzusunda tədbir keçiriləcəkdir.

"1 mart - Ümumdünya mülki müdafiə günü"nün hərtərəfli hazırlanması və keçirilməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.22-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq

**qərara alıram:**

1. Tədbirə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının rəhbər heyəti, fövqəladə hallar komissiyası, mülki müdafiə qərargahı və mülki müdafiə qüvvələri cəlb edilsin.
2. Mülki müdafiə qərargahının rəisi tədbirdə iştirak edəcək şəxslərin hazırlığını təşkil etsin.
3. "1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsinə dair sənədlərin hazırlanması mülki müdafiə qərargahının rəisinə tapşırılsın.
4. "1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsinə cəlb edilən rəhbər heyət və mülki müdafiə qüvvələrinin komandir-rəis və şəxsi heyəti funksional vəzifələrini öyrənsinlər və dəqiqləşdirsinlər.
5. Bu sərəncamı rəhbər tutaraq məşqə hazırlıq işləri görülsün.
6. Məşq qurtardıqdan sonra 5 gün müddətində məşq üzrə işlənmiş sənədlərin bir nüsxəsi Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinə təqdim edilsin.
7. Sərəncamın yerinə yetirilməsinə nəzarət mülki müdafiə qərargahının rəisinə həvalə edilsin.
8. Tədbirə rəhbərliyi öz üzərimdə saxlayıram.
9. Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, bu Sərəncamın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənəd dövriyyəsi, vətəndaş müraciətləri**
**və inzibati işlər şöbəsinin müdiri** 　　　　　　**Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

"TƏSDİQ EDİRƏM"

Binəqədi Rayon İcra Hakimiyyətinin

başçısı ______________ Elxan Allahverdiyev

" 23 " fevral 2026-cı il

**Binəqədi Rayon İcra Hakimiyyətində "1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsinə dair tədbirlər**

**P L A N I**

| S/s | Tədbirlərin adı | Keçirilmə tarixi | Kim keçirir | Qeyd |
|---|---|---|---|---|
| **1.** | "1 mart - Ümumdünya mülki müdafiə günü"nə həsr olunmuş tədbirin keçirilməsinə dair toplanış: | 18.02.2026-cı il | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | |
| **2.** | "1 mart - Ümumdünya mülki müdafiə günü"nə həsr olunmuş tədbirin кeçirilməsi ilə əlaqədar plandan çıxarışın icra olunması. | 20.02. 2026-cı il | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini | |
| **3.** | "1 mart - Ümumdünya mülki müdafiə günü"nə həsr olunmuş tədbirin кeçirilməsi ilə əlaqədar planlaşdırıcı sənədlərin hazırlanması və razılaşdırılması. | 23.02. 2026-cı il | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | |
| **4.** | "1 mart - Ümumdünya mülki müdafiə günü"nə həsr olunmuş tədbirin keçirilməsinə dair tövsiyyələrin verilməsi. | 23.02. 2026-cı il | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | |
| **5.** | - mülki müdafiə qüvvələrinin xəbərdarlıq siqnalı üzrə toplanışı və baxışı;<br>- mülki müdafiə gününə həsr olunmuş yığıncağın keçirilməsi;<br>- mülki müdafiəyə dair əmlak və avadanlıqların, tibbi fərdi mühafizə vasitələrinin sərgilərinin təşkil olunması;<br>- ilkin tibbi yardımın göstərilməsi qaydalarının nümayiş etdirilməsi. | 27.02. 2026-cı il | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | |

| | | | | |
|---|---|---|---|---|
| **6.** | “1 mart - Ümumdünya mülki müdafiə günü”nə həsr olunmuş tədbirin keçirilməsi barədə yekun hesabatın Fövqəladə Hallar Nazirliyi Bakı Regional Mərkəzinə təqdim edilməsi. | 05.03. 2026-cı il | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini** **Hacıbaba Babayev**

**Fövqəladə Hallar Nazirliyi**
**Bakı Regional Mərkəzinin rəisi,**
**polkovnik**
**Elnur Məhərrəmova**

**Binəqədi Rayon İcra Hakimiyyətində**
**"1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsinin**

**Yekun Məlumatı**

Binəqədi Rayon İcra Hakimiyyətində "1 mart – Ümumdünya mülki müdafiə günü" münasibəti ilə 27.02.2026-cı il tarixdə tədbir keçirilmişdir. Tədbirə mülki müdafiə qüvvələrinin komandir-rəis heyəti və şəxsi heyəti, habelə mülki müdafiə qüvvələrinə cəlb olunmayan işçilər cəlb olunmuşlar.

"Dayanıqlı və sabit gələcək naminə ekoloji risklərin idarə edilməsi" mövzusuna əsasən işçilərə mühazirə oxunmuşdur. Fərdi mühafizə vasitələrindən istifadə praktiki nümayiş olunmuşdur. İlkin tibbi yardım göstərilməsi qaydaları nümayiş etdirilmişdir.

Tədbirin keçirilməsində əsas məqsəd:

- İşçilərin vətənə, dövlətimizə məhəbbət, vətənimizin qorunmasında öz konstitusiya borcunun yerinə yetirilməsinə hazır olması ruhunda tərbiyə olunması.
- Keçirilən mülki müdafiə tədbirlərinin effektivliyinə inamın tərbiyə olunması.
- İşçilərin yüksək mənəvi-siyasi, habelə psixoloji keyfiyyətlərini inkişaf etdirmək və təkmilləşdirmək.

Tədbirin keçirilməsinədək olan müddət ərzində lazımi sənədlər hazırlanmışdır. Tədbirin keçirilməsində məqsəd bütün işçilərin fövqəladə hadisələr zamanı fəaliyyət üzrə biliklərin və əməli vərdişlərin artırılması olmuşdur.

Tədbir yüksək səviyyədə keçirilmiş və qarşıya qoyulan məqsədə əsasən nail olunmuşdur.

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayonu İcra Hakimiyyəti

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı** **Elxan Allahverdiyev**